**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# NEFT SƏNAYESİ VƏ AZƏRBAYCANIN İQTİSADİ TƏHLÜKƏSİZLİYİNİN MÖHKƏMLƏNDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

İxtisas: 5312.01 "Sahə iqtisadiyyatı"
Elm sahəsi - İqtisadiyyat
İddiaçı: Toğrul İsrafil oğlu Əliyev

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**GƏNCƏ – 2021**

Dissertasiya işi – AMEA İqtisadiyyat İnstitutunun "Sənaye siyasəti və investisiya problemləri" şöbəsində yerinə yetirilmişdir

Elmi rəhbər : iqtisad elmləri doktoru, professor
**Elşən Mahmud oğlu Hacızadə**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, dosent
**Anar Fazil oğlu Abbasov**
iqtisad elmləri doktoru, professor
**Qənimət Əsəd oğlu Səfərov**
iqtisad elmləri namizədi, dosent
**Asəf Məhərrəm oğlu Qasımov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Dövlət Aqrar Universiteti və Azərbaycan Kooperasiya Universitetinin ED 2.42 Birgə dissertasiya şurası.

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü, i.e.d., professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

Dissertasiya şurasının elmi katibi: iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Pərvin Elman qızı Muxtarova**

Elmi seminarın sədri: əməkdar kənd təsərrüfatı içşçisi
iqtisad elmləri doktoru, professor
**İslam Hacı oğlu İbrahimov**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi** Qloballaşmanın geniş vüsat aldığı şəraitdə dünya ölkələrinin təbii ehtiyatlarının tədricən tükənməsi, onların əhalisinin sayının artması, miqrasiya prosesinin genişlənməsi, ətraf mühitin çirklənməsi və s. sosial-iqtisadi inkişafa əhəmiyyətli təsir göstərir. Azərbaycan Respublikasının təhlükəsizliyi - onun ərazi bütövlüyünün, milli maraqlarının, davamlı inkişafının, əhalinin rifah halının yaxşılaşdırılmasına təsir edən amillərin məcmusu ilə şərtlənir. Müstəqillik illərində Azərbaycanda qəbul edilən müvafiq qanun və ölkə Prezidentinin sərəncamı ilə təsdiq edilmiş Milli Təhlükəsizlik Konsepsiya həmin təhlükələrin aradan qaldırılması üzrə mühüm normativ-hüquqi aktlardır. Adı çəkilən konsepsiyada qeyd edilir ki, Azərbaycanda şəxsiyyətin, cəmiyyətin, dövlətin xarici və daxili təhlükələrdən qorumağa yönəldilmiş siyasət, tədbirlər, prinsiplər və yanaşmalar formalaşdırılmışdır. Həmin konsepsiyada milli maraqlara hədəflənən tədbirlər sırasında – təbii sərvətlərdən səmərəli istifadə edilməsi, davamlı iqtisadi inkişaf, təhsil, elm və texnoloji potensialın artırılması, ətraf mühitin qorunması, təhlükəsizliyin daxili və xarici siyasət vasitəsilə təmin edilməsi, iqtisadi və sosial inkişaf, daxili təhlükəsizliyin möhkəmlənməsi, enerji təhlükəsizliyi siyasəti, istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsi, mövcud potensiallardan səmərəli istifadə, korporativ idarəetmənin təkmilləşdirilməsi, dayanıqlı və tarazlı inkişafın təmin edilməsində sərmayələrin cəlb edilməsi və sairə xüsusi yer tutur. Hal-hazırda ölkə iqtisadiyyatının neft gəlirlərindən asılılığı mövcuddur. Belə ki, dövlət büdcəsinin gəlirlərinin 60%-zə qədəri neft sektorunun hesabına təmin edilir.

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bəyan etmişdi ki: "Neft amilindən çox məharətlə istifadə etməliyik ki, Azərbaycanın iqtisadiyyatı hər tərəfli inkişaf etsin və gələcək nəsillərimiz neft amilindən asılı olmasın". ("Azərbaycan" qəzeti, 17.04.2018).* Bütün bu müddəalar ölkənin iqtisadi təhlükəsizliyinin möhkəmləndirilməsində neft amilindən istifadənin istiqamətlərinin elmi araşdırma predmetinə daxil edilməsinin aktuallığını əks etdirir. "Milli iqtisadiyyatın perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə (2016) qeyd edildiyi kimi, uzaq perspektivdə neft hasilatının azal-

ması proqnozlaşdırılır. Deməli, ölkənin iqtisadi təhlükəsizliyinin və davamlı inkişafının təmin edilməsi strategiyasının həyata keçirilməsi üçün neft sənayesində dəyişikliklər həyata keçirilməlidir. Ölkənin neft sənayesinin inkişaf etdirilməsi müasir dünya iqtisadiyyatının əsas problemləri ilə (demoqrafik, resurs, maliyyə, texnoloji, ekoloji) bilavasitə bağlı olduğunun nəzərdən keçirilməsi tələb olunur. Neft strategiyasının formalaşması prosesində kompleks problemlər diqqəti cəlb edir ki, onların da içərisində: iqtisadi artım, makroiqtisadi tarazlıq, texnoloji innovasiyalar və onların yayılması, cəmiyyətin inkişafına xidmət edən problemlər daha qabarıq şəkildə özünü biruzə verir. Həmin problemlərin həll edilməsi üçün neft sənayesində tədbirlər şəxsiyyətin, müəssisənin və sahənin iqtisadi təhlükəsizlik ilə uzlaşdırılmış şəkildə həyata keçirilməli, mövcud vəziyyət və perspektiv inkişaf imkanları kompleks şəkildə qiymətləndirilməli, formalaşdırılan iqtisadi kurs orijinal, qəti və uzlaşdırılmış qərarlar əsasında reallaşdırılmalıdır. Deyilənlərlə yanaşı beynəlxalq bazalarda əlverişsiz şəraitin yarandığı zaman dövlət məqsədyönlü şəkildə neft sektorunun və milli iqtisadiyyatın dəstəklənməsi kontekstində iqtisadi, siyasi, institusional şəraitin daha əlverişli olması üçün bir sıra təsirli tədbirlər həyata keçirilməlidir. Bu tədbirlər sırasında investisiya və innovasiya sferasında biznes təşəbbüslərinin dəstəklənməsi, həmçinin milli iqtisadiyyatın təhlükəsizliyinini təmin edilməsi çərçivəsində enerji təhlükəsizliyin təmin olunmasına yönəldilmiş tədbirlər mühüm yer tutur. Onların içərisində 1 ton neftin və 1000 kub.m qazın maya dəyərinin aşağı salınması, qeyri-isehsal və idarəetmə xərclərinin optimallaşdırılması, tətbiq edilən layihələr üzrə risklərin minimuma endirilməsi, yanacaq-enerji resurslarından qənaətlə və səmərəli istifadə məqsədi ilə dövlət nəzarətinin gücləndirilməsi, dövlət-özəl tərəfdaşlıq sisteminin formalaşdırılması, innovasiya fəaliyyətinin genişləndirilməsi, beynəlxalq bazarlarda Azərbaycanın yanacaq-enerji sisteminin mövqeyinin yaxşılaşdırılması, bütünlükdə neft-qaz sektorunun ölkənin iqtisadi və ekoloji təhlükəsizliyinin təmin olunmasında rolunun daha da möhkəmləndirilməsi və sair tıdbirlər həllini gözləyən problemlər sırasındadır və dissertasiya işinin mövzusunun aktuallığını şərtləşdirmişdir.

Neft sənayesinin inkişafı və onunla əlaqədar təşkilati-iqtisadi və sosial problemlər, iqtisadi təhlükəsizlikdə neft sənayesinin rolu, sahənin iqtisadi potensiallarından səmərəli istifadə edilməsi, neft sənayesinin ətraf mühitə təsiri, qeyri-neft sektorunun inkişafında rolu, sahənin investisiya cəlbediciliyi, innovasiya aktivliyi bütünlükdə milli iqtisadiyyatın inkişafında rolu Azərbaycan alimlərindən: Z.Səmədzadə (51, 52), M. Atakişiyev (13, 14, 15), E. Aslanov, E. Hacızadə (30-37), M. Meybullayev (43), T.Əliyev (21, 22), T.Hüseynov (40), A.Hüseynov (38), P.Vəliyev (56), S.Mikayılova (44, 45), Ş.Qafarov (18), R.Həsənov (39), Ə.Nuriyev (47), Q. Səfərov (50), İ.Kərimli (57), A.Şəkərəliyev (58), Hümdətova S.İ. (41), xarici tədqiqatçılar arasında L.Abalkin (59), A.Arxipov (71), K..Bezuqlova (75), Y.Buxvald (77), Q.Veçkanov (80), D.Qordienko (84), Q.Qudman (85), V.Qusev (87), N. Quskov (88), D.Kuznetsov (90), Y.Loktionova (91), S.Stepaşina (98), N.Amstrup (114), M.Ayub (115), E.Kraxman (126), D.Kim (123) və başqaları tərəfindən tədqiq edilmiş və önəmli tövsiyələr verilmişdir.

Aparılan tədqiqatların elmi və praktiki əhəmiyyəti ilə əlaqədar qeyd etmək lazımdır ki, neftqazçıxarma sənayesinin Azərbaycanın iqtisadi təhlükəsizliyinin möhkəmləndirilməsində rolu və başlıca istiqamətləri bu vaxtadək kompleks şəkildə tədqiq edilməmişdir və bu da seçilən mövzunun aktuallığını şərtləndirmişdir.

**Tədqiqatın obyekti** kimi Azərbaycan Respublikasının neftqazçıxarma sənayesi seçilmiş, **predmeti** isə - neft-qaz sənayesinin ölkənin iqtisadi təhlükəsizliyin möhkəmləndirilməsinə təminat yaradan imkanların istiqamətlərinin elmi araşdırmaları və mexanizmləri ilə şərtləşir.

**Tədqiqatın məqsədi və vəzifələri**. Tədqiqatın məqsədi neft sənayesinin ölkənin iqtisadi təhlükəsizliyini möhkəmləndirilmək, iqtisadi təhlükəsizliyinin təmin olunmasında neft sektorunun imkanlarından səmərəli istifadə üçün elmi cəhətdən əsaslandırılmış nəzəri və praktiki əhəmiyyətə malik təklif və tövsiyələr işləyib hazırlamaqdan ibarətdir. Həmin məqsədin icrası üçün bir sıra vəzifələr qarşıya qoyulmuşdur:

- iqtisadi təhlükəsizliyə dair konsepsiyaların ümumiləşdirilməsi əsasında iqtisadi təhlükəsizlik anlayışı, onun məzmunu, meyarları

və göstəricilərinin təsnifləşdirilməsinin nəzəri-metodoloji əsaslarının tədqiq olunması;

- iqtisadi təhlükəsizliyin təmin olunmasında təbii resursların, xüsusən neft sənayesinin yeri və rolunun müəyyən edilməsi;
- rəsmi statistik və hesabat məlumatları əsasında neft sənayesi, müəssisənin və sahənin iqtisadi təhlükəsizliyinin təmin edilməsinə təsirinin qiymətləndirilməsi və müvafiq ehtiyat imkanlarının aşkara çıxarılması;
- neft-qaz sənayesinin ölkənin makroiqtisadi göstəricilərə təsirinin riyazi-statistik modellər əsasında qiymətləndirilməsi;
- qloballaşma və dərinləşən inteqrasiya şəraitində neft-qaz resurslarından və iqtisadi potensiallarından səmərəli istifadə imkanları və makroiqtisadi göstəricilərə təsirinin müəyyən edilməsi;
- ölkənin və sahənin (müəssisənin) iqtisadi təhlükəsizliyinin təminatı mexanizminin işlənilməsi;
- neft sənayesinin ölkənin iqtisadi təhlükəsizliyinin möhkəmləndirilməsi istiqamətində əməli xarakterli təklif və tövsiyələrin işlənib hazırlanması.

**Tədqiqatın metodları**. Tədqiqat işi yerinə yetirilərkən modelləşdirmə, riyazi-statistik, sistemli və kompleks yanaşma, qrafik, struktur – funksional, müqayisə, analitik ümumiləşdirmə və digər iqtisadi metodlardan istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar** aşağıdakılardan ibarətdir:

- İqtisadi təhlükəsizliyin təmin olunmasında tədbirlər kompleksi və müvafiq fəaliyyət strategiyasında iqtisadi təhlükəsizlik üçün daxili və xarici təhdid mənbələri nəzərə alınmalıdır. Yəni tədbirlər sistemi və strategiyanın həyata keçirilməsi mexanizmi həmin təhdid mənbələri əsasında müəyyənləşdirilməlidir. Bu baxımdan Azərbaycan Respublikasında iqtisadi təhlükəsizliyə neqativ təsir göstərə bilən real və potensial təhlükə mənbələri müəyyən olunmalıdır.
- İqtisadi təhlükəsizlik səviyyəsini qiymətləndirmək üçün iqtisadi təhlükəsizlik meyarları təcrübədə müəyyən alqoritm əsasında tətbiq olunmalıdır;
- Ölkə sənayesində praktiki vəzifələrin həll edilməsi üçün elmi əsaslarla dağ mədən hasilatı sahəsinin ölkənin milli təhlükəsizliyindəki rolu məsələsinə aydınlıq gətirməlidir. Konkret faydalı qa-

zıntıların hasilatının iqtisadi cəhətdən səmərəliliyinin səviyyəsi müəyyənləşdirilməlidir. Azərbaycan Respublikasında xammal mineral resursların yüksək və minimal səviyyəsi (daxili istehlak və ixrac üçün) müəyyənləşdirilməlidir. Burada əhəmiyyətli olan mineral resursların hasilatının və emalının həcmi, ixracının həcmi təsbit olunmalıdır;

- Milli təhlükəsizlik üçün, həmçinin iqtisadi inkişaf üçün müəyyən həcmdə neft və qaz ehtiyatları ilə davamlı təminat zəruri şərt olsa da kafi şərt deyil. Belə ki, dünyada kifayət qədər çoxlu misallar var ki, neft və qaz ehtiyatı ilə zənginlik iqtisadi inkişafı stimullaşdırmaq əvəzinə "holland sindromu" yaradaraq, milli təhlükəsizliyə təhdidlər yaradıb. Ona görə də neft gəlirlərinin düzgün idarə edilməsinin və səmərəli istifadəsinin daim təkmilləşdirilməsinə ehtiyac duyulur.
- Ölkənin iqtisadi təhlükəsizliyinin təminat yaradan mexanizmin sahə və ya müəssisə çərçivəsində formalaşdırılması onun obyektini üzərində müəyyən fəaliyytin həyata keçirilməsi mexanizmləri ilə şərtləşir. Həmin obyektlər içərisində: maliyyə resurslarının mənbəyi və həcmi, mənfəət, kapitalın aktivlərin və pul axınının strukturu, investisiya, innovasiya , maliyyə riskləri və s. qeyd etmək olar. Onların hər biri haqqında dürüst informasiyanın əldəedilməsi SWOT-təhlilin aparılmasında müstəsna rol oynayır.
- Dövlət səviyyəsində iqtisadi transformasiya neqativ təsir göstərən təhlükə amillərinin monitorinqi həmin təhlükələrin təsir gücünün azalması və təmamilə aradan qaldırılması xidmət edir. Bu baxımdan vacib məsələ təkcə ərazilərin istehsal resurs potensialının bərpası deyil əhalinin daha rahat yaşamasının təmin olunmasıdır. Qeyd edilənləri ümumiləşdirərək ölkənin iqtisadi təhlükəsizliyin təmin edən kompleks tədbirləri müvafiq sxem şəklində təsvir edilməsinə dair təklif hazırlanmışdır.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, baza iqtisadiyyatının formalaşdığı və inkişafı şəraitində Azərbaycanın iqtisadi təhlükəsizliyinin möhkəmləndirilməsində neft sənayesinin rolu kompleks şəkildə təhlil edilib qiymətləndirilmiş, iqtisadi təhlükəsizliyin və davamlı inkişafın təmin edilməsinə hədəflənən elmi cəhətdən əsaslandı-

rılmış başlıca istiqamətləri və mexanizmləri işlənilmişdir. Elmi yeniliyin müddəalarına aşağıdakılar aid edilir:

- Milli iqtisadiyyatın iqtisadi təhlükəsizliyinin təminatının spesifik fəaliyyət növü kimi mahiyyəti ilə bağlı çoxsaylı elmi-nəzəri yanaşmaları ümumiləşdirərək fərqli işləmələr hazırlanmış və iqtisadi təhlükəsizliyin daxili və xarici təhdid istiqamətləri müəyyən edilmişdir (s. 23-26);

İqtisadi təhlükəsizlik səviyyəsinin meyarlar üzrə qiymətləndirilməsinin alqoritmi işlənilmişdir (s.35);

Milli iqtisadiyyatın təhlükəsizliyinə təsir göstərən təhlükələr və onların əsas indikatorları təsnifləşdirilmiş, mineral xammal təhlükəsizliyini xarakterizə edən meyar və qiymətləndirmə sistemi təklif olunmuşdur (s. 50-51);

– Neft-qaz sənayesinin makroiqtisadi göstəricilərə təsirinin riyazi-statistik modeli qurulmuşdur (s. 91-98);

– Ölkənin neft-kimya məhsulları istehsalı üzrə: xammal → əsas məhsullar → təkrar istehsal → əlavə dəyər zəncirinin yaradılmasının zəruriliyi və iqtisadi əhəmiyyəti əsaslandırılmışdır (s. 110-111);

– Neft-qaz sənayesinin ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi mexanizminin formalaşdırılması üzrə fərqli metodiki yanaşma təklif edilmiş və onun təminedicilərinin təsnifatı verilmişdir (s. 113-120).

– Dövlətin iqtisadi təhlükəsizliyini əks etdirən sistem göstəricilərin beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş astana həddi ilə müqayisəli səviyyələri və rəqabət qabiliyyətlilik indeksi hesablanmışdır (s. 130-132).

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti** ondan ibarətdir ki, tədqiqat işinin əsas müddəaları, nəticələri, irəli sürülən təklif və tövsiyələri neft sənayesinin milli iqtisadi təhlükəsizliyin təmin olunmasında fərqli metodiki yanaşma kimi movcud tədqiqatların zənginləşdirilməsində istifadə edilə bilər. Tədqiqatın praktiki əhəmiyyəti müvafiq sahə və dövlət proqramlarının, strategiya və konsepsiyalarının hazırlanmasında, neft sənayesində idarəetmə mexanizminin təkmilləşdirilməsində, xərclərin idarə edilməsində innovasiya yönümlü və yüksək texnologiyalı məhsulların istehsalının artırılmasında, enerji

təhlükəsizliyinin təmin edilməsində, şəxsiyyətin, müəssisənin, sahənin və ölkənin daxili təhlükəsizliyinin qorunmasında alternativ mənbə kimi istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi**. Dissertasiya işinin əsas müddəaları, irəli sürülən metodoloji və əməli xarakterli təkliflər iki beynəlxalq konfransda məruzə edilmiş və materiallar toplu şəklində nəşr olunmuşdur. Onlardan «Актуальные проблемы науки XXI века» (Москва, 30 декабря 2017 г.), «Внедрение результатов инновационных разработок: проблемы и перспективы» (Самара, 08 января 2018 г.) göstərmək olar. Tədqiqatın nəticələri AAK-nın tövsiyə etdiyi nüfuzlu iqtisadi jurnallarda, elmi məqalələr toplusunda, o cümlədən üçü xaricdə rus dilində yazılmış impact factor jurnalında dərc edilmişdir.

**Tədqiqatın nəticələri** və formalaşdırılan tövsiyələr "Abşeronneft" Neftqazçıxarma İdarəsinə, eləcə də, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə təqdim edilmiş, idarəetmə sistemində və tədris prosesində tətbiq və istifadə edilmək üçün qəbul olunmuş və müvafiq arayışlar alınmışdır (№ ŞH-01/42 15.02.2018 və №08-194, 20.02.2018).

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi AMEA-nın İqtisadiyyat İnstitutunda yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi:** Dissertasiya işinin ümumi həcmi 253340 işarə təşkil edir. O cümlədən titul vərəqi və mündəricat 1366 işarə, giriş 13115 işarə, I fəsil 74034 işarə, II fəsil 64673 işarə, III fəsil 68893 işarə, nəticə 12933 işarə, istifadə edilmiş ədəbiyyat siyahısı 18326 işarə, cədvəllər, şəkillər, diaqramlar və istifadə edilmiş ədəbiyyat siyahısı nəzərə alınmadan dissertasiya işinin həcmi 203015 işarə təşkil edir.

## MÜDAFİƏYƏ TƏQDİM EDİLƏN ƏSAS ELMİ MÜDDƏALAR

**1. Milli iqtisadiyyatın iqtisadi təhlükəsizliyinin təminatının spesifik fəaliyyət növü kimi mahiyyəti ilə bağlı çoxsaylı elmi-nəzəri yanaşmaları ümumiləşdirərək fərqli işləmələr hazırlanmış və iqtisadi təhlükəsizliyin təhdid istiqamətləri müəyyən edilmiş, dövlətin iqtisadi təhlükəsizliyinin quruluşu, əsas prinsipləri, iqti-**

**sadi təhlükəsizliyə təsir edən və sərtləşdirən amillər sistemləşdirilmiş və təkliflər hazırlanmışdır.**

Azərbaycanın və xarici ölkə alimlərinin tədqiqatlarının məzmununu ümumiləşdirilməısindən belə qənaətə gəlmək olar ki, dövlətin iqtisadi təhlükəsizliyinin struktur elementlərinə texnoloji, xammal, valyuta-kredit, enerji, informasiya, ərzaq, ekoloji təhlükəsizlik və digər bu kimi elementlər daxildir. Dövlətin iqtisadi təhlükəsizliyinin təminatı üçün həmin elementlərin hər biri üzrə həyati vacib maraqların qorunması zəruridir.

Ümumiyyətlə, təhlükəsizlik hər şeydən əvvəl vətəndaşların, dövlətin və bütünlükdə cəmiyyətin həyati mənafelərini təmin etməli, onların tələbatının daha dolğun və etibarlı ödənilməsini şərtləşdirməlidir. İqtisadi təhlükəsizliyin təmin edilməsi üçün icra üzərində nəzarət orqanları bir sıra prinsiplərin tələblərinə riayət etməlidirlər. Həmin prinsiplərə: ədalətlilik və operativlik, müzakirə və razılıq, təhlükələrə xüsusi diqqət yetirilməsi; şəffavlıq, hadisələr üzərində daimi nəzarət və təhlükələrin qiymətləndirilməsi; iqtisadi təhlükəsizliyin təmin edilməsi üçün beynəlxalq təcrübənin dəstəklənməsi, eləcə də beynəlxalq hüquqi hörmət daxildir. Ümumiyyətlə, milli iqtisadi təhlükəsizliyin təmin olunması dedikdə, əsasən müvafiq hökumət və qeyri-hökumət təşkilatlarının iqtisadi maraqlarının təmin edilməsinə yönəlmiş, mümkün daxili və xarici təhlükələrə istiqamətlənmiş vahid və adekvat tədbirlər sistemi nəzərdə tutulur. Iqtisadi təhlükəni şərtləşdirən əsas amillər differensial formada: iqtisadi, təşkilati, hüquqi, sosial, ticarət, və s. kimi daxili və xarici amillər kimi təsnifləşdirilir.

Müasir dövrdə Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyin təmin edilməsi vəzifəsinin həll edilməsi üçün real və potensial təhlükə amillərinin vaxtında müəyyənləşdirilməsi, məqsədyönlü və təsirli tədbirlərin həyata keçirilməsinin olduqca böyük əhəmiyyəti vardır. Burada söhbət Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinə neqativ təsir göstərən daxili və xarici təhdid mənbələrdən gedir.

Elmi ədəbiyyatlarda iqtisadi təhlükəsizliyin daxili və xarici ziddiyyətlərlə əlaqədar məzmununun ifadə edilməsi istiqamətlərində kifayət qədər yanaşmalar mövcuddur. Lakin bütün bunların içərisində

təbii resursa əsaslanan neft sənayesinin rolu və əhəmiyyəti nəzərə alınmamışdır.

Təhlil əsasında belə bir nəticəyə gəlirik ki, iqtisadi artımın yüksək dayanıqlığını, iqtisadi ehtiyacların səmərəli ödənilməsini təmin edən, milli resursların hərəkətini və istifadəsini nəzarətdə saxlayan, milli maraqların beynəlxalq və milli səviyyədə qorunmasını təmin edən iqtisadi durum iqtisadi təhlükəsizlik anlayışını səciyyələndirir.

**2. Tədqiqat zamanı sistemli yanaşmaya üstünlük verməklə iqtisadi təhlükəsizliyin meyar və daxili və xarici göstəricilər sistemi müəyyən edilmiş, onların qiymətləndirilməsinin alqoritmi işlənilmişdir.**

İqtisadi təhlükəsizliyin təmin edilməsi üçün öyrənilməsi zəruri potensiallar və real təhlükələrin təsnifatının aparılması və hər bir potensial təhlükə üçün yol verilə bilən hədd qiymətlərinin müəyyən edilməsi vacib hesab edilir. Belə hədd qiymətlərinin müəyyən edilməsi isə müxtəlif metodologiya ilə reallaşır. Hədd göstəriciləri ilə müvafiq iqtisadi göstəricilərin müqayisəsi iqtisadi təhlükəsizliyin dərəcəsini müəyyən etməyə imkan verə bilər.

İqtisadi təhlükəsizlikdə mövcud vəziyyət obyektiv meyar və göstəricilər sistemi vasitəsi ilə müəyyənləşdirilir. Məhz onların vasitəsi ilə iqtisadi sistemin fəaliyyətinin əhəmiyyəti dəyərləndirilir. İqtisadi təhlükəsizliyin göstəriciləri dedikdə bütövlükdə ölkənin iqtisadi sistemi, onun dayanıqlığı və çevikliyi haqqında ümumi təssəvvür yaradan daha əhəmiyyətli problemlər başa düşülür. Akademik Z.Ə. Səmədzadənin elmi redaktor və müəllifi olduğu Böyük İqtisadi Ensiklopediya ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi səviyyəsini qiymətləndirmək üçün 25-ə yaxın göstəricinin hesablaması və təhlil edilməsi məqsədə uyğun hesab edilir. İqtisadi təhlükəsizlik səviyyəsini qiymətləndirmək üçün yuxarıda qeyd edilən göstəricilərlə yanaşı iqtisadi təhlükəsizlik meyarları da müəyyən edilməlidir. Onların alqoritmi şəkil 1-də əks etdirilmişdir.

Neft hasilatının azaldığı şəraitdə daxili və xarici bazarlarda dəyişikliklər baş verir, qiymətlər dəyişir, əldə edilən əlavə gəlir azalır. Belə olduğu halda dövlət ayrıca olaraq iqtisadi səmərəlilik və təhlükəsizliyə münasib yanaşma göstərməlidir.

İqtisadi təhlükəsizlik strategiyası Azərbaycan iqtisadi sistemi-

nin təhlükəsiz fəaliyyət göstərməsi üçün qısa və uzun müddətli perspektivlərdə həyata keçirilməsi nəzərdə tutulmuş iqtisadi təhlükəsizlik strategiyasının işlənib hazırlanması tələb olunur.




**Şəkil 1. İqtisadi təhlükəsizlik səviyyəsinin meyarlar üzrə qiymətləndirilməsi alqoritmıı[1]**

İqtisadi təhlükəsizliyin dövlət strategiyasında hər şeydən öncə milli maraqlar nəzərə alinmalıdır. Azərbaycanın iqtisadi strategiyasının məqsədi iqtisadi artıma nail olmaqdır. Artım hədəf və istiqamətləri makroiqtisadi tənzimlənmənin tərkib hissəsi kimi struktur siyasəti çərçivəsində işlənilib hazırlanır.

İqtisadi təhlükəsizliyə nail olmaq üçün münasib iqtisadi, siyasi, hüquqi, geosiyasi, geostrateji şərait, ölkənin resurs potensialının qorunması və istifadəsi baxımından həyati əhəmiyyət kəsb edən

[1] Mənbə: müəllif tərəfindən hazirlanmişdir.

maraqlarının qorunması, tarazlaşdırılmış və dinamik artıma, sosial inkişafa və ekoloji təhlükəsizliyə nail olunması tələb olunur.

Ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi müvafiq infrastrukturun yaradılmasını tələb edir. Sözügedən infrastruktur bütün icraedici, qanunverici hakimiyyət orqanlarına nüfuz etmək qabiliyyətində olmalıdır. İqtisadi təhlükəsizliyinin təmin edilməsinin bütün amillərinin nəzərə alınması kontekstində "elm-təhsil-istehsalat" zəncirinin uğurlu icrası iqtisadiyyatda mövcud olan texniki-texnoloji təşkilati-iqtisadi geriliklərin aradan qaldırılmasına imkan verə bilər.

Etiraf etmək lazımdır ki, Azərbaycanda fəaliyyət göstərən müəssisə, şirkət, firma səviyyəsində rəqabət mühitini məqbul hesab etmək çətindir. Sənaye rəqabətqabiliyyətli problemini sürətlə həll edilmədən iqtisadi təhlükəsizlik məhsul idxalından, valyutaya yüksək tələbdən asılı olacaqdır. Yuxarıda göstərilən daxili təhlükələr aradan qaldırılması üçün qeyri neft sektoruna yönəldilməsi işləri intensivləşdirilməlidir.

**3. Aparılan tədqiqat nəticəsində müasir şəraitdə milli iqtisadiyyatın təhlükəsizliyinə təsir göstərən təhlükələr və onların əsas indikatorları təşnifləşdirilmiş, mineral xammal təhlükəsizliyini xarakterizə edən meyar və qiymətləndirmə sistemi təklif olunmuşdur.**

İşdə istifadə təhlükəsizliyə nail olmaq üçün mövcud büdcə sisteminin təkmilləşdirilməsi, fond bazarının inkişaf etdirilməsi, inflasiyanın bir rəqəmli həddə saxlanılması, kölgə iqtisadiyyatının və korrupsiyanın aradan qaldırılması üzrə daha təsirli tədbirlərin həyata keçirilməsinin vacibliyi qeyd edilmiş, müəllifin müvafiq tövsiyələri formalaşdırılmışdır.

Dissertaiya işində təbii resursların iqtisadi təhlükəsizliyin təmin edilməsində yeri və rolu tədqiq edilmiş, neftqazçıxarma sənayesinin ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətini özündə əks etdirən sxem təklif edilmiş, "Əsrin Müqaviləsi"nin və onun icrasının ölkənin sosial-iqtisadi inkişafında, beynəlxalq nüfuzunun artmasında, ixrac potensialının möhkəmləndirilməsində, davamli valyuta ehtiyatının formalaşdırılmasında əhəmiyyəti göstərilmişdir.

Milli təhlükəsizlik nəzəriyyəsi baxımındam milli xammal təhlükəsizliyinin təmin olunması bütün milli iqtisadiyyatı xarakterizə etməyə imkan yaradan müxtəlif meyarlar və qiymətləndirmələr siste-

mində tələb olunan mineral xammal resurslarının zəruri kəmiyyəti, daxili istehlak üçün edilən müəssisələrində istehsal edilən resursların həcmi və s. xarakterizə edilir.

Azərbaycan Respublikasında xammal mineral resursların yüksək və minimal səviyyəsi (daxili istehlak və ixrac üçün) müəyyənləşdirilməlidir. Burada əhəmiyyətli olan mineral resursların hasilatının və emalının həcmi, ixracının həcmi təsbit olunmalıdır. Bu baxımdan, üç göstəricilər sistemi xüsusi olaraq diqqəti cəlb edir: xarici iqtisadi, ümumi iqtisadi, sahə daxili (bax cədvəl 1). Milli mineral-xammal təlükəsizliyi səviyyəsinin obyektiv qiymətləndirilməsi üçün dünya ticarətinin sahə həcmi nəzərə alinmalıdır.

Mineral xammalin ixraci milli təhlükəsizliyin tələblərinə həmin məhsullarin ölkə daxilində tələbə ziyan vurmamasına qədər cavab verir. Bu məsələdə tələblə təklif arasında tarazlaşdırılmış siyasət həyata keçirilməlidir.

**Cədvəl 1. Milli mineral xammal təhlükəsizliyini xarakterizə edən meyar və qiymətləndirmə sistemi**[2]

| **Xarici iqtisadi göstəricilər** | **Ümumi iqtisadi göstəricilər** | **Sahələrdaxili göstəricilər** |
|---|---|---|
| Təbii resursların ayrı-ayrı növləri üzrə dünyadakı yeri | Mineral-xammal resurslarının mütləq qiymətləndirilmələrdə və adambaşına düşən göstəriciləri | Müxtəlif sahələr üzrə məhsul istehsalına çəkilən məsrəflər |
| Zəruri mineral resurslarla təminat | Mineral xammal kompleksinin ÜDM-də payı | İnvestisiyaların həcmi və dinamikası |
| Dünya ticarətinin sahələr üzrə həcmi | Dağ-mədən hasilatı və yardımçı sahələrdə çalışanların sayı | Ayrı-ayrı sahələrin gəlirlilik səviyyəsi |
| Mineral xammalların qiyməti | İstehsal gücləri və kommunikasiyaların mövcudluğu | |

Aparılan araşdırmaların nəticəsində ölkəmizdə iqtisadi təhlükəsizlik baxımından aşağıdakı istiqamətlərdə tədbirlərin həyata keçirilməsi zəruri hesab olunur:

- ərzaq təhlükəsizliyinin təmin olunmasına diqqətin daha da artırılması (bioloji və genetik təhlükələrə qarşı daha ciddi mübarizənin aparılması);
- ölkədə yüksək ixtisaslı, yeni texnologiyaları mənimsəyən və yaradan kadrların hazırlanması;

---

[2] Mənbə: müəllif tərəfindən hazirlanmişdir.

- milli sahibkarlıq institutlarının inkişaf etdirilərək beynəlxalq arenada mövqe və nüfuz qazanmasına nail olmaq;
- turizm və digər sahələrin, bütünlükdə qeyri-neft sektorunun yüksək gəlirli sahələrə çevrilməsinə nail olmaq;
- milli maraqların qorunması ilə inteqrasiya proseslərinə daha fəal qoşularaq dünya təsərrüfat sistemində yeni mövqelərin qazanılması və s.

**4. Dissertasiya işində çoxillik statistik və hesabat sənədlərinin məlumatları əsasında Azərbaycanın iqtisadi təhlükəsizliyi ümumi şəkildə qiymətləndirilmiş, mövcud karbohidrogen ehtiyatlarından istifadənin vəziyyəti, milli neft stragiyasının icrası və onun iqtisadi təhlükəsizliyin təminatı amilləri (neft-qaz ehtiyatı, onların hasilatı, onların ixrac boru kəmərləri ilə daşınması, neft sənayesinə yönəldilən investisiya, ixrac məhsulların strukturu və sairə) təhlil edilmiş, neft-qaz sənayesinin ölkənin makro-iqtisadi göstəricilərinə təsirinin riyazi-statistik modeli qurulmuşdur.**

Ekspert hesablamalarına görə, Azərbaycanda 6,0 trlyn.kub. m qaz və 4,6 mlrd. ton neft ehtiyatı vardır. Ölkə ərazisində aşkar edilən 81 neft-qaz yatağının 59-da karbohidrogen hasil edilir. Bütün yataqların 67,8% quruda; 32,2% dəniz ərazisində yerləşir. Neftin sənaye üsulu ilə hasilata başlamasından keçən dövr ərzində 2,1 mlrd. ton neft və 900 mlrd. kub. metrə yaxın qaz hasil edilmişdir. "Əsrin Müqaviləsi" çərçivəsində istismar edilən "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqlarının istismarı ölkədə neft və qaz hasilatının həcminin əsaslı şəkildə artmasına və onların mütləq hissəsinin boru kəmərləri ilə xarici ölkələrə ixracına imkan vermişdir. Azərbaycanda ixrac məhsullarının strukturunda mineral yanacaq, neft və neft emalı məhsullarının xüsusi çəkisi 90%-dən yuxarıdır. Azərbaycanda hasil edilən neft-qaz satışından əldə edilən vəsait Dövlət Neft Fondunda cəmləşir. Bu fondun cari aktivləri (valyuta ehtiyatı) 2009-2019-cu illərdə 2,9 dəfə artaraq 43,3 mlrd. dollara çatmışdır (bax qrafik 1).

Həmin fondun vəsaitinin bir hissəsi dövlət büdcəsinə transfert edilir. SOCAR-ın dövlət büdcəsinə və DSMF-na ödəmələrini də nəzərə alsaq, büdcənin neft amilindən asılılıq dərəcəsi təkcə 2010-2018-ci illərdə 47,0%-lə 68,5% arasında dəyişmişdir.




**Qrafik 1. ARDNF idarəetmədə olan vəsaitlərinin dinamikası[3]**

**Cədvəl 2. Neft və qaz satışından dövlət büdcəsinə ayırmalar[4]**

| İllər | Dövlət büdcəsinin gəlirləri mlyn.man | ARDNF-dən dövlət büdcəsinə transfer-lər mln.man | ARDNŞ (SOCAR-ın) ödənişləri, mlyn.man | | Dövlət büdcəsinin neft amillərindən asılılıq dərəcəsi, faizlə |
|---|---|---|---|---|---|
| | | | Dövlət büdcəsinə | DSMF | |
| 2010 | 11403 | 4915 | 1263 | 138 | 55,4 |
| 2011 | 15701 | 6480 | 1335 | 134,5 | 50,6 |
| 2012 | 17281 | 9905 | 1427 | 157,5 | 66,5 |
| 2013 | 19159 | 11350 | 1575 | 162,2 | 68,5 |
| 2014 | 18384 | 9337 | 1855 | 173,4 | 61,8 |
| 2015 | 17498 | 10388 | 1500 | 139,3 | 68,9 |
| 2016 | 17515,7 | 7615 | 1396 | 144,4 | 52,2 |
| 2017 | 16516,7 | 6100 | 1511,3 | 156,0 | 47,0 |
| 2018 | 22508,9 | 9216 | 1604,5 | 172,5 | 48,8 |
| 2019 | 24199,6 | 11364 | 1409 | 173,6 | 53,5 |

Adı çəkilən fondun və şirkətin vəsait hesabına, iqtisadi təhlükəsizliyin və davamlı inkişafın təmin edilməsi baxımından ölkə ərazisində və onun hüdudlarından kənarda bir sıra müştərək istehsal müəssisələri, yanacaq doldurma məntəqələri, eləcə də çoxsaylı sosial infrastruktur obyektləri (boru kəmərləri, terminallar, stadionlar, məktəblər, müalicə-diaqnistika mərkəzləri və s.) tikilib istifadəyə verilmiş, məqsədli proqramların icrasi təmin edilmişdir.

**5. Neft-qaz sənayesinin inkişafının makro-iqtisadi göstəricilərə təsirinin riyazi-statistik modeli qurulmuş, iqtisadi artımda rolu qiymətləndirilmişdir.**

Neft strategiyasının uğurlu icrası nəticəsində ölkə iqtisadiyyatına yönəldilən xarici investisiyaların yarıdan çoxu neft-qaz sektorunun

---

[3] Mənbə:ARDNF hesabatlarını əsasında tərtib olunub.

[4] Mənbə: Azərbaycanın statistik göstəriciləri. Bakı, "DSK" 2016, s 404; 2017, s.405; SOCAR-i 2010-2016-cı illər üzrə illik hesabatları əsasında tərtib edilib.

payına düşür. Odur ki, həmin vəsaitin bütünlükdə iqtisadi inkişafa və hər hansı iqtisadi fəaliyyət sahəsinə təsirlərinin mütəmadi öyrənilməsi lazım gəlir. Bu məqsədlə dissertasiya işində neft və qaz sektorunun bir sıra makro-iqtisadi göstəricilərə təsiri öyrənilmiş və muvafiq riyazi-statistik model qurulmuşdur. Bu zaman EVIEWS proqram paketindən istifadə edilərək hesablamalar aparılmışdır. Baza məlumatı kimi, neft gəlirləri (X1), sahəyə yönəldilən birbaşa xarici investisiya (X2), neft və qaz hasilatının həcmi (X3; X4), sahədə əsas fondların dəyəri (X5) nəzərə alınmaqla onların ÜDM-ə (S1), adambaşına düşən gəlirə (S3), məşğulluq və yoxsulluq səviyyəsinə (S2; S4) təsirinin korrelyasiya əlaqələri müəyyən edilmişdir.

**Cədvəl 3. ÜDM həcmi ilə neft və qaz sənayesinə aid bəzi göstəricilər arasındakı korrelyasiya əlaqəsi***

| | S1 | X1 | X2 | X3 | X4 | X6 | X7 |
|---|---|---|---|---|---|---|---|
| S1 | 1 | 0.95622630... | 0.80132230... | 0.96838757... | 0.96586805... | 0.91286736... | 0.98187717... |
| X1 | 0.95622630... | 1 | 0.69768780... | 0.87552201... | 0.90770287... | 0.94749606... | 0.94005795... |
| X2 | 0.80132230... | 0.69768780... | 1 | 0.89697709... | 0.91593490... | 0.69750580... | 0.71754162... |
| X3 | 0.96838757... | 0.87552201... | 0.89697709... | 1 | 0.97741174... | 0.87479647... | 0.93793601... |
| X4 | 0.96586805... | 0.90770287... | 0.91593490... | 0.97741174... | 1 | 0.87435897... | 0.91661847... |
| X6 | 0.91286736... | 0.94749606... | 0.69750580... | 0.87479647... | 0.87435897... | 1 | 0.92058648... |
| X7 | 0.98187717... | 0.94005795... | 0.71754162... | 0.93793601... | 0.91661847... | 0.92058648... | 1 |

*Qeyd: müəllif tərəfindən EVIEWS proqram paketi vasitəsilə hesablanıb

Cədvəlin nəticələrindən istifadə edərək ÜDM-in həcmi ilə neft gəlirləri arasında əlaqə modelini aşağıdakı kimi təsvir etmək olar:

$$\widehat{S1} = 1662.664 + 2.1684 * X1 \quad (1)$$

Aparılan hesablamalar göstərir ki, adambaşına düşən gəlirlərin həcmi ilə neft-qaz gəlirləri arasındakı korrelyasiya əlaqəsinin hesablanması belə bir nəticəni verir ki, bu iki göstərici arasındakı korrelyasiya əmsalı kifayət qədər güclüdür və R=0,7582 və düstür formasında aşağıdakı kimi təsvir edilmişdir:

$$\widehat{S3} = 364.3270 + 0.1358 * X1 \quad (2)$$

Azərbaycanda yoxsulluq səviyyəsi ilə neft və qaz sənayesinin bəzi göstəriciləri arasındakı korrelyasiya əlaqələrinin statistik təhlili:

$$\widehat{S4} = 44.5194 - 0.0017 * X1 \quad (3)$$

Büdcə xərcləri ilə neft-qaz gəlirləri arasında riyazi statistik asılılıq pozitiv olmuş və növbəti düsturla əks etdirilmişdir

$$\hat{S5} = -413.7172 + 0.6894 * X1 \quad (4)$$

Beləliklə, neft və qaz sektorunun bəzi makroiqtisadi təsirlərinin qiymətləndirilməsi və proqnozlaşdırılması ilə bağlı qeyd etmək olar ki, neft və qaz gəlirləri ÜDM həcminə, əhalinin hər nəfərinə düşən gəlirlərə və dövlət büdcəsinin gəlirlərinə pozitiv təsir edir.

**6. Ölkənin neft-kimya məhsulları istehsalı üzrə xammal → əsas məhsullar → təkrar istehsal → əlavə dəyər zəncirinin yaradılmasının zəruriliyi və iqtisadi əhəmiyyəti əsaslandırılmışdır. Neft-qaz resurslarının iqtisadi təhlükəsizliyin təminatında ondan səmərəli istifadə istiqamətləri müəyyən edilmişdir.**

Fikrimizcə həmin dəyər zəncirinin fasiləsiz formalaşması üçün "Azərkimya" İB-nin "EP-300" qurğusunun, eləcə də polipropilen və yüksək sıxlıqlı polietilen qurğuları fasiləsiz olaraq xammalla təchiz edilməli, "Petkim"-də və Sumqayıt kimya sənaye parkında istehsal edilən məhsulların dərin kimyəvi emala cəlb olunması, adı çəkilən parkınn aktivləri arasında inteqrativ proseslər möhkəmləndirilməlidir. Həmin zəncirin qırılmaması üçün aşağıdakı bir sıra əməli xarakterli tədbirlərin icrasına nail olmaq vacibdir:

► Mövcud neft və qaz emalı zavodlarının kimya sənayesi üçün əhəmiyyətini nəzərə alaraq onlaırn layihə gücünə çatdırılması və modernizasiyası üçün məqsədli investisiya-innovasiya layıhəsinin işlənilməsi və həyata keçirilməsi;

► "Azərikimya" İB sistemində xammal kimi ixrac edilən kimya məhsullarının SKSD-nin ərazisində yeni qurğuların tikilməsi şərti ilə emalının təşkil edilməsi;

► Ölkənin iqtisadi fəaliyyət sahələrinin xammalla təchizatının yaxşılaşdırmaq üçün SKSP-nin ərazisində əmtəə plastikləri istehsalının genişləndirilməsi;

► Xalis plastik axının səviyyəsini yüksəltmək üçün ixracyönümlü polimer istehsalınını həcminin artırılması;

► Plastikdən olan bütün növ tullantıların SKSP-da təkrar emalı sahəsinin yaradılması və orada texniki təyinatlı plastik qabların (tara, kasset, kisə, qıf, həsir və sairə) istehsalınını təşkili;

► Sintetik yuyucu maddələr istehsalınını bərpa və inkişaf etdirilməsi;

► Ölkə əhalisinin təbii bitkilərdən hazırlanacaq əczaçılıq məh-

sullarına olan tələbatının ödənilməsi, idxalı əvəz edən eyni adlı məhsulların istehsalı məqsədi ilə Türkiyə, Ukrayna-Polşa, Almaniya ölkələrindən biri ilə müştərək müəssisələrin yaradılması;

Qeyd edilən tövsiyələrin həyata keçirilməsi üçün xam neft və qazın, eləcə də neft və neft kimya emalı məhsullarının satışından əldə edilən dəyərin optimallaşdırılması üçün məqsədli mexanizm işlənib hazırlanmalıdır. Bu mexanizm öz əksiini neft sanayesinin strateji xarakterli Baş Planında tapa bilər.

**7. Neft-qaz sənayesinin ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi mexanizminin formalaşdırılması üzrə fərqli metodiki yanaşma təklif edilmiş və onun təminedicilərinin təsnifatı verilmişdir.**

İqtisadi təhlükəsizlik strategiyasının üzvi hissəsini ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunması mexanizmləri, vətəndaşların mühüm və həyati əhəmiyyət kəsb edən maraqlarının bütün dövlət hakimiyyəti və orqanları tərəfindən hüquqi, iqtisadi və inzibati tədbirlər vasitəsi ilə təmin olunması beynəlxalq əmək bölgüsündə ölkənin iştirakı, bərabərhüquqlu dünya təsərrüfat sisemində inteqrasiyası, iqtisadi və texniki əməkdaşlıq məsələlərində ölkənin xarici dövlətlərdən asılılığının aradan qaldırılması mühüm əhəmiyyət kəsb edir. Qloballaşma şəraitində ölkəmizin iqtisadi təhlükəsizliyinin təmin olunması mexanizminin əsas elementlərini aşağıdakı kimi təsnifləşdirmək olar:

- respublikanın strateji maraqları nəzərə alınmaqla xarici ticarətin və xarici iqtisadi əlaqələrin tənzimlənməsi və inkişaf etdirilməsi;
- ixrac potensialının inkişaf etdirilməsi ilə, həmçinin idxalın məhdudlaşdırılması və ölkədə istehsal edilən məhsullarla təmamilə əvəz edilməsi ilə xarici ticarətin sahə strukturunun təkmilləşdirilməsi, idxalın ölkənin sahə strukturundan həddindən artıq mövqeyinin güclənməsinin qarşısının alınması;
- ölkədə yüksək texnologiya istehsalçılarının dəstəklənməsi, həmçinin daha rəqabətdavamlı məhsulların dünya bazarlarına çıxarıla bilməsi və mövqelərinin gücləndirilməsi üçün onların ixrac fəaliyyətlərinin stimullaşdırılması;
- dövlət və regional idarəetmə orqanlarının fəaliyyətinin yüksəldilməsi, Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinin da-

xili və xarici təhlükələrdən qorunması üçün dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi;

- milli istehsalçıların daxili bazarda mövqelərinin qorunması üçün hər kəs tərəfindən qəbul olunmuş və səmərəli prosedurlar vasitəsi ilə, həmçinin düşünülmüş proteksionizm siyasətinin həyata keçirilməsi;

- milli valyuta manatın kursunun sabitləşdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi, eyni zamanda xarici ölkələrə borcların daha əlverişli şərlərlə ödənilməsi şərait və imkanlarının yaradılması;

- xarici bazarlarla operativ və vaxtında əlaqələrin yaradılması, əmtəə və servis axınının daxili bazarda optimal və səmərəli təşkil edilməsi üçün informasiya və kommunikasiya sektorunun yaradılması;

- ölkənin elmi-texniki, istehsal,təhsil, texniki-texnoloji potensialının artmasının, həmçinin əhalinin həyat səviyyəsi və keyfiyyətinin yüksəldilməsinin stimullaşdırılması.

Fikrimizcə, həmin mexanizm nefqazçıxarma və emal müəssisələrində müvafiq alt sistemlərin köməyi ilə həyata keçirilməlidir. Onlara: müvafiq alətlər, göstəricilər sistemi, tənzimləyicilər, eləcə də hüquqi, normativ, informasiya, kadr, maliyyə, logistika, elmi-texniki, təşkilati idarəetmə və s. aiddir

Neftqazçıxarma sənayesi müəssisələrində iqtisadi təhlükəsizliyin təmin edilməsi üçün idarə edən sistemdə: ehtiyyat, mühafizə, bərpa və tənzimləmə mexanizmləri kompleks şəkildə həyata keçirilməlidir. Bütün hallarda iqtisadi təhlükəsizliyin fəlsəfəsi – seçilmiş sərhədlər daxilində xarici mühitin qeyri-müəyyənlik şəraitində əldə ediləcək nəticələrin formalaşdırılması üçün sistemin əsas parametrlərinin uyğunlaşdırılmasıdır. Ona riayət etmək üçün əvvəlcə iqtisadi təhlükəsizliyin- normal, yüksək, aşağı və böhran həddləri müəyyən edilməli, funksional elementlərdən (təşkiletmə, planlaşdırma, uçot təhlil, diaqnostika, nəzarət və koordinasiya) və idarəetmə alətlərindən (iqtisadi-inzibati), eləcə də digər məqsədli elementlərdən (etibarlılığın təmin edilməsi, obyektlərin real mövcudluğu, idarə olunan sistemin dayanıqlığı, fəaliyyət haqqında dürüst informasiya), həmçinin yuxarıda sadalanan təminedici elementlərdən istifadə olunmalıdır.

İşdə həmin mexanizmlər və alətlər, alt sistemlər tərəfimizdən tərtib edilən sxem və şəkillərdə öz əksini tapmışdır. Təsnifləşdirilən inzibatı alətlərə - hüquqi cəhətdən tənzimləmə, lisenziya, kvota, normalaşdırma, limitlərin müəyyən edilməsi və sairə daxildir. Birbaşa inzibati təsir alətləri kimi: dövlət sifarişi, məqsədli maliyyələşdirmə, dotasiya; dolayı təsir alətləri kimi: vergi stavkası, güzəştlər, ödənişə möhlət, lizinq, qiymətli kağızlar əməliyyatı, valyuta kursu, investisiya təminatı, gömrük rüsümü, gözəşti və sairə çıxış edə bilər.

Hesab edirik ki, ölkənin iqtisadi təhlükəsizliyini təmin etmək üçün neftqazçıxarma və emal müəssisələrinin özlərinin iqtisadi təhlükəsizliyi təmin olunmalıdır. Bu məqsədlə işdə çoxsaylı əməli xarakterli təkliflər formalaşdırılmış, daxili və xarici iqtisadi təhlükəsizlik mexanizmlərinin başlıca elementlərinin təsnifatı xasusi tərtib edilmiş şəkil və sxemlərdə öz əksini tapmışdır.

Ölkənin iqtisadi təhlükəsizliyinin təminat yaradan mexanizmin sahə və ya müəssisə çərçivəsində formalaşdırılması onun obyektləri üzərində müəyyən fəaliyytin həyata keşirilməsi ilə şərtləşir. Həmin obyektlər içərisində: maliyyə resurslarının mənbəyi və həcmi, mənfəət, kapitalın aktivlərin və pul axınının strukturu, investisiya, innovasiya, maliyyə riskləri və s. qeyd etmək olar. Onların hər biri haqqında dürüst nformasiyanın əldə edilməsi SWOT-təhlilin aparılmasında müstəsna rol oynayır.

İqtisadi təhlükəsizliyin təmin edilməsi mexanizminin formalaşdırılması üzrə aşağıdakı metodiki yanaşmanı məqsədəuyğun hesab edirik:

- neft sənayesi müəssisəlrinin biznes xüsusiyətinin, onun bazardakı yerinin öyrənilməsi və əsas texniki-iqtisadi gücləndiricilərinin səviyyəsininn səviyyəsinin müxtəlif təhlil metodları əsasnda qiymətəndirilməsi;
- neft sənayesi müəssisələrinin iqtisadi təhlükəsizliyinə qorxu yaradan daxili və xarici amillərin təhlil etmək, böhran şəraitinin yaraması haqqında lazımi informasiyanı toplamaq;
- təhlükəsizliyin təminatı üzrə mövcud informasiya-texniki, intellektual, iqtisadi, hüquq, formal və qeyri-formal vasitələrin mövcudluğunu və yararlığını müəyyən etmək;
- iqtisadi təhlükəsizliyin təmin edilməsi mexanizminin, ona çə-

kiləcək xərclərin məbləği və strukturunun müəssisə rəhbəri ilə razılaşdırılması;

- müəssisədə yaradılan iqtisadi təhlükəsizlik mexanizminin həyata keçirilməsi üzərində nəzarətin təşkili;
- iqtisadi təhlükəsizlik mexanizminin səmərəliliyinin qiymətləndirilməsi;
- işlənilən iqtisadi təhlükəsizlik mexanizminin təkmilləşdirilməsi və korrektə olunması.

Adı çəkilən iqtisadi mexanizmin formalaşdırılması zamanı aşağıdakıların nəzərə alınması vacibdir:

- neft sənayesi müəssisələrinin spesifik xüsusiyyəti;
- müəssisənin qlobal informasiya sferasına cəlb edilməsi səviyyəsi;
- daxili və xarici mühitin neft sənayesi müəssisəsinin fəaliyyətinə təsir dərəcəsi;
- yarana bilən təhlükəyə operativ və adekvat cavab vermək (qarşısını almaq);
- strategiyanın işlənilməsi və planlaşdırılması;
- neft-qaz resurslarından səmərəli istifadə və onun optimal bölüşdürülməsi.

**8. Dövlətin iqtisadi təhlükəsizliyini xarakterizə edən sistem göstəricilər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş astana həddi ilə müqayisəli səviyyələri və rəqabət qabiliyyətlilik indeksi hesablanmışdır.**

Azərbaycan Respublikasında həyata keçirilən düşünülmüş və sistemli islahatlar əhalinin rifah halının və həyat səviyyəsinin keyfiyyətinin artırılması, onların maddi, sosial və mədəni maraqlarının qorunmasına hədəflənərək səmərəli və dinamik iqtisadi inkişafa təminat yaratmışdır. Həmin dövrdə ölkə ərazisində müasir sosial infrastruktur formalaşdırılmış, ölkələrin innovativ inkişaf kursu ardıcıl olaraq davam etdirilmiş, emal məhsulları istehsal edən yeni qeyrineft sənaye sahələri yaradılmış, enerji və resurslara qənaət edən texnologiyalar tətbiq olunmuşdur. Əldə edilən yüksək nailiyyətlərə baxmayaraq, ölkə iqtisadiyyatı dünyada baş verən müasir çağırışlara tam şəkildə həssas ola bilməmiş, dünyada baş verən iqtisadi və maliyyə böhranları bu və ya digər formada iqtisadiyyata öz mənfi təsirini göstərmişdir. Neftin dünya bazarında qiymətinin aşağı düşməsi, onun ix-

racını azalmaqla yanaşı satışından əldə edilən gəlirlərin xeyli dərəcədə azalmasını şərtləşdirmişdir.

Dövlətin, eləcə də neft sənayesinin iqtisadi təhlükəsizliyini xarakterizə edən həmin indikatorların faktiki səviyyəsi onu göstərir ki, onlar beynəlxalq təcrübədə istinad edilən astana həddindən əsaslı şəkildə fərqlənir.

**Cədvəl 4. Azərbaycanda dövlətin iqtisadi təhlükəsizliyini əks etdirən göstəricilərin astana və faktiki səviyyələri5**

| N | Göstəricilər | Göstəricinin səviyyəsi % | | Astana həddindən kənarlaşma %-lə |
|---|---|---|---|---|
| | | Astana həddi | Faktiki vəziyyət | |
| 1 | ÜDM-in aparılmasına düşən (böyük yeddiillik ölkələr üzrə) orta göstəricisinə görə | 50,0 | 19,0 | -31,0 |
| 2 | Ölkə iqtisadiyyatına yönəldilən investisiyaların məbləğinin ÜDM-i xüsusi çəkisi | 25 | 32,4 | +7,5 |
| 3. | Birbaşa xarici investisiyaların həcminin daxili investisiyalarda xüsusi çəkisi | 15,7 | 54,1 | +38,4 |
| 4 | Əsas istehsal fondlarının aşınma dərəcəsi (neft və təbii qaz hasilatında) | 30-35 | 28,6 | -1,4 |
| 5 | Sənaye məhsulları isyehsalında emal sənayesinin payı | 70 | 21,9 | -48,1 |
| 6 | Sənaye məhsullarının istehsalında ümumi aşınqayırma sənayesinin payı | 20 | 1,12 | -18,8 |
| 7 | Daxili tələbatda idxal məhsullarının xüsusi çəkisi | 30,0 | 31,0 | +1,0 |
| 8 | Beynəlxalq standartlara əsasən işsizlik səviyyəsi | 7,0 | 5,0 | -2,0 |
| 9 | Beynəlxalq standartlara əsasən illik inflyasiya səviyyəsi | 20,0 | 10,3 | -9,7 |
| 10 | Əhalinin ömrünün (həyatının) orta yaşayış müddəti | 70 | 71,1 | +1,1 |
| 11 | Xarici dövlət borclarının ÜDM-i xüsusi çəkisi | 50,0 | 22,8 | -27,2 |
| 12 | Büdcə gəlirlərinə nisbətən dövlətin xarici borcları | 30,0 | 41,8 | +11,8 |
| 13 | ÜDM-də dpvlət büdcəsinin kəsirinin xüsusi çəkisi | 5,0 | 0,28 | -4,72 |
| 14 | Elmə çəkilən xərclərin ÜDM-dəki xüsusi çəkisi | 2,0 | 0,2 | -1,8 |
| 15 | Əsas kapitala yönəldilən investisiyaların ÜDM-ki xüsusi çəkisi | 25,0 | 12,7 | -12,3 |
| 16 | İnnovasiya məhsulunun bütün sənaye məhsulundakı xüsusi çəkisi | 15,0 | 0,06 | -14,9 |
| 17 | Manetarlaşmanın – M2 pul aqreqatı kütləsinin ÜDM nisbəti | 50,0 | 18,4 | -31,6 |
| 18 | Ən yüksək gəliri 10% əhali ilə ən az gəliri olan 10% əhali qrupları arasındakı fərqlər | 8 dəfə | 12,8 dəfə | +4,8 |
| 19 | Yaşayış minimumundan aşağı gəlirləri olan əhalinin xüsusi çəkisi | 7,0 | 15,0 | +8,0 |

Cədvəldən göründüyü kimi, iqtisadi təhlükəsizliyi xarakterizə edən və tərəfimizdən hesablanmış 19 göstəricidən 7-nin faktiki səviyyəsi astana həddini üstələyir; 12 göstərici üzrə isə - astana həd-

[5] Mənbə: Cədvəl AR DSK-nin rəsmi məlumatları və beynəlxalq təşkilatların tövsiyələrinə əsasən müəllif tərəfindən tərtib edilib hesablanmışdır.

dindən aşağıdır və ölkə həmin göstəricilər üzrə təhlükəli zonadadır. Odur ki, növbəti illərdə Azərbaycan öz iqtisadi fəaliyyət sahələrinin diqqətini: mövcud əsas istehsal fondlarının yeniləşməsinə; emal sənayesi məhsullarının həcminin artırılmasına, maşınqayırma sənayesini dirçəltməyə; inflysiya səviyyəsini azaltmağa; dövlət borclarını minimuma endirməyə; elmə çəkilən xərcləri əsaslı şəkildə artırmağa; manetarlaşmanı yüksəltməyə; sənaye təyinatlı innnovasiya məhsullarının həcminin və çeşidinin əsaslı şəkildə çoxaldılmasına; rəqabətqabiliyyətli ixrac yönümlü və idxalı əvəz edən qeyri neft sənaye məhsullarının həcminin artırılmasına az gəlirli əhalinin maddi rifah halını yaxşılaşdırmağa yönəltməlidir.

Sadalanan problemlərin həlli istiqamətində uğur qazanmaq və iqtisadi təhlükəsizliyin təmin edilməsi idarəetmə səviyyəsindən asılı olaraq: informasiya –analitik, tənzimləyici təsir və birbaşa təsir tədbirləri həyata keçirilməlidir. İşdə həmin tədbirlərin üzvü tərkib hissəsini əhatə edən təsnifat sxem şəklində təsvir edilmiş ölkənin iqtisadi təhlükəsizliyinin səviyyəsini qiymətləndirmək üçün rəqabət qabiliyyəti indeksi hesablanmışdır.

Bu göstərici özündə adambaşına düşən ÜDM-in yaşayış minimumuna nisbştini (K1) ÜDM-də elmə çəkilən xərclərin xüsusi çəkisini (K2) və ölkənin əmək resurslarının vəziyyətini xarakterizə edən insan potensialının inkişaf indeksinin (K3) məcmusunu əks etdirir və riyazi şəkildə aşağıdakı kimi təsvir oluna bilər:

$$İka = 0,33\ K1 + 0,33\ K2 + 0,34\ K3 \quad (5)$$

Burada ARDSK-nin 2018-cı il üzrə rəsmi məlumatlarından istifadə edərək tərəfimizdən K1-0,02; K2 –0,21 və K3 - 0,766 həddində qəbul edilmiş və yekun nəticə 0,336 həddində müəyyən olunmuşdur ki, bu da qənaətbəxş hesab edilir.

Yuxarıda qeyd edilənlərlə yanaşı, dissertasiya işinin sonunda tədqiqatın nəticələri ümumiləşdirilmiş, ölkənin iqtisadi təhlükəsizliyinin neft amili nəzərə alınmaqla möhkəmləndirilməsi üzrə əməli xarakterli təklif və tövsiyələr irəli sürülmüşdür:

Azərbaycanın neftqazçıxarma sənayesinin ölkənin iqtisadi təhlükəsizliyinin möhkəmləndirilməsində rolu və əhəmiyyətinin kompleks şəkildə tədqiqi elmi cəhətdən əsaslandırılmış aşağıdakı təklif və tövsiyələrin hazırlanmasına imkan yaratmışdır:

1. Azərbaycan Respublikasının İqtisadi Təhlükəsizliyinin təmin edilməsinin təkmil normativ-hüquqi bazası formalaşdırılmışdır. Onların əsasını Azırbaycan Respublikasının Konstitusiyası, Milli təhlükəsizlik haqqında Qanun, Milli təhlükəsizlik və “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyaları, müvafiq Dövlət Proqramları və neft-qaz sənayesinin inkişafına dair strateji Yol Xəritəsi təşkil edir.
2. Dövlətin iqtisadi təhlükəsizliyinin strukturunda: texnoloji, istehsal, xammal, enerji, informasiya, valyuta – kredit, intellektual və kadr, ərzaq, ekoloji təhlükəsizlik və sair kimi elementlərin olduğunu nəzərə alaraq, işdə həmin strukturun, iqtisadi təhlükəsizliyin təmin olunmasının əsas prinsipləri, təhlükəsizliyə təsir edən və şərtləşdirən amillərin təsnifatı, sənaye sahələrində iqtisadi təhlükəsizlik siseminin daxili və xarici mühitlə qarşılıqlı əlaqəsinin prinsipal sxemləri işlənilmişdir.
3. Beynəlxalq təcrübəyə əsaslanaraq tərəfimizdən iqtisadi təhlükəsizlik meyarları və göstəricilərinin (indikatorlarının) təsnifatı dəqiqləşdirilmiş, həmin indikatorların beynəlxalq təşkilatlar tərəfindən tövsiyə edilən astana həddi ilə müqayisəli hesablamaları aparılmış və kənarlaşmaların həddi, eləcə də səbəbləri göstərilmiş, iqtisadi təhlükəsizlik səviyyəsinin meyarlar üzrə qiymətləndirilməsinin alqoritmi təklif edilmişdir.
4. Neft-qaz sənayesinin ölkənin makroiqtisadi göstəricilərinə təsirinin riyazi-statistik model əsasında qiymətləndiricisi nəticəsində müəyyən edilmişdir ki, ÜDM-in həcminə əhalinin hər nəfərinə düşən gəlirə və dövlət büdcəsinin formalaşmasına pozitiv təsir göstərir. Qarşıda duran strateji məsələ neft amili hesabına qeyri-neft sektorunu inkişaf etdirməkdir. Bu baxımdan əsas diqqət emal sənayesinin inkişafına yönəldilməlidir. Bu sahədə istehsalın diversifikasiyasının həyata keçirilməsi və orada innovasiya fəaliyyətinin gücləndirilməsi həllini gözləyən prolemlərdəndir.
5. Ölkədə başlıca hədəf iqtisadi təhlkəsizlik sistemi ehtimal edilən təhlükələrin tənzimlənməsindən ibarət olduğunu nəzərə alaraq, işdə ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunması sisteminin idarə olunmasının istiqamətlərini, strateji məqsədlərin və mexanizmlərin təsnifatını özündə əks etdirən, məzmunu ilə fərqlənən, prinsipal sxemlər verilmişdir.

6. Aparılan təqiqatla sübut edilmişdir ki, neftqazçıxarma sənayesinə daxl olan müəssisələrin iqtisadi təhlükəsizliyini təmin etmədən ölkənin iqtisadi təhlkəsizliyinə zəmanət vermək mümkün deyil. Bu baxımdan, işdə müəssisənin iqtisadi təhlkəsizliyinin təmin edilməsinin mexanizmini və onun alt sistemlərini, eləcə də daxili və xarici iqtisadi mexanizmlərin əsasında təmin edilməsinin aşağıdakı başlıca istiqamətlərin formalaşdırılması məqsədəuyğun hesab edilir:

- Neft-qaz ixrac boru kəmərlərinin potensial imkanlarından istifadə etməklə Avropa ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsi Azərbaycanın beynəlxalq imicinin qorunub saxlanılmasına və neft amili hesabına iqtisadi təhlükəsizliyinin möhkəmləndirilməsinə öz tövhəsini verə bilər;
- SOCAR-ın xarici ölkələrdə nümayəndəliklərinin, müştərək müəssisələrinin, yanacaqdoldurma şəbəkələrinin sayının artırılması onun ixrac imkanlarının genişləndirilməsi hesabına əlavə gəlir əldə etməyə imkan verə bilər;
- Neft-qaz, neft emalı və qeyri-neft sənaye məhsullarının ənənəvi və yeni bazarlarda satışının təşkili üzrə yeni forma və metodların axtarılması işinin davam etdirilməlidir;
- Azərbaycanın neft emalı, kimya və neft-kimya məhsullarının, gübrələrin, digər qeyri-neft sənaye məhsullarının MDB ölkələrinə ixracının artırılması hesabına yüksək iqtisadi səmərənin əldə edilə bilər;
- Azərbaycana birbaşa xarici investisiyaların cəlb edilməsi hesabına kimya, neft kimyası, əczaçılıq sferalarında yeni növ genişçeşidli, idxalı əvəz edən məhsullar istehsal etmək məqsədilə xarici ölkələrin transmilli korporasiyaları ilə əməkdaşlığın genişləndirilməlidir;
- Sumqayıt Kimya Sənaye Parkında, H.Əliyev adına Bakı NEZ-də Qaz emalı zavodunda "Azerikimya", "Azeriqaz" İB sistemində V və VI texnoloji qrupa aid texnologiyaların tətbiqi əsasında innnovasiya yönümlü və yüksək texnologiyalı məhsulların istehsalının artırılması məqsədilə aşağıdakı tədbirlərin həyata keçirilməsi:

-dövlət əhəmiyyətli məsələlərin həllində, layihələrin icrasında elmi təşkilatların cəlb edilməsi və rolunun artırılması;

-yüksək texnologiyaların tətbiqinin təşkili üçün ölkədə innovasiya və istehsal infrastrukturunun yaradılması istiqamətində səylərin artırılması;

-yeni materiallardan, NANO-texnologiyalardan və İKT-dən istifadəyə söykənən milli iqtisadiyyatın yüksək texnologiyalara istiqamətlənən dövlət innovasiya siyasətinin icrasının sürətləndirilməsi;

-intellektual yaradıcılıq və innovasiya sahibkarlığının geniş yayılması üçün çoxsəviyyəli idarəetmə sisteminin yaradılması;

-ölkədə və YEK-də milli innovasiya sisteminin inkişafı koordinasiya edən səmərəli mexanizminin yaradılması;

-marketinq tədqiqatlarının və fəaliyyətinin səmərəli təşkili hesabına emal müəssisələrinin anbarlarında yığılıb qalmış və miqdarı ildən-ilə artan neft emalı, kimya, neft-kimya məhsullarının tam həcmdə satışının təşkili;

- elmi, elmi-texniki və innovasiya fəaliyyətinin səmərəli təşkili üçün dövlət büdcəsindən ayrılan vəsaitin ÜDM-dəki payının 0,2%-dən 1,0%-zə çatdırılması;

-Sumqayıt Kimya Texnologiya Parkında və digər şəhərlərdə yaradılan texnoparklarda, sənaye xidmət məhəllələrini innovasiya fəaliyyəti həyata keçirən biznes-inkubatorların və kiçik təşkilatların yaradılması;

-Yek-in idarəetmə və təsərrüfat təcrübəsində yeni hesab edilən forma kimi-elm, təhsil və istehsalat təşkilatlarını özündə cəmləşdirən sahə klastrerlərin və texnoloji platformaların yaradılması;

7. Hesab edirik ki, ölkənin mövcud iqtisadi təhlükəsizlik strategiyasına aşağıdakılar daxil olmalıdır:

– Azərbaycan Respublikasının iqtisadi təhlkəsizliyinə təsir göstərən, şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqlarına təhlükə yaradan xarici və daxili təhlükələrin xarakterizə olunması: qısamüddətli və orta müddətli perspektivdə dövlətin sosial iqtisadi sisteminin sabitliyini sarsıdan amillərin müəyyənləşdirilməsi;

–İqtisadiyyat sahəsində Azərbaycan Respublikasının iqtisadi təhlükəsizlik tələblərinə cavab verən, milli maraqların xarakterizə etməyə imkan yaradan meyar və parametrlərin üəyyənləşdirilməsi;

–Milli iqtisadiyyatın sabitliyinin əsaslarını sarsıdan amillərin təsirinin yumşaldılması və aradan qaldırılmasına imkan yaradan döv-

lət siyasətinin formalaşdırılması, institusional dəyişikliklərin həyata keçirilməsi və mexanizmlərin işə salınması.

8. Azərbaycan Respublikasında iqtisadi təhlkəsizliyə neqativ təsir göstərən real və potensial təhdid və təhlükə mənbələri kimi, aşağıdakıları müəyyənləşdirmək olar:

–Dövlət borclarının (xüsusilə xaricilərə) və maliyyə (borc və dövlət zəmantlərinin) öhdəliklərinin astana həddindən artıq olması;

–Büdcə -vergi sisteminin qeyri səmərəli fəaliyyəti, büdcə kəsirinin artması, büdcə daxilolmalarının azalması;

– İnflyasiya təzahürlərinin adi hal alması və aradan qaldırılmasının mümkün olmaması;

–Struktur (iqtisadiyyatın sahvi və regional) disproporsiyalarının mövcudluğu;

–İntellektual kapitalın, maddi və maliyyə resurslarının xaricə axını;

–İqtisadiyyatın texnoloji-innovativ yeniliklərin tətbiqinin aşağı səviyyədə olması;

–İnfrastrukturun kifayət qədər inkişaf etməməsi;

–İnhisarçı iqtisadi mühitdə azad rəqabət problemlərinin yaranması;

–Kölgə iqtisadiyyatının güclənməsi, iqtisadi cinayətkarlıq faktlarının artması və s.

–Respublikada istehsal edilən məhsullara xarici bazarlarda tələb yetərsizliyi, bəzən qeyri iqtisadi mexanizm və amilllərin iqtisadi amilləri üstələməsi ilə Azərbaycan mənşəli mallara ayrı-seçkiliyin tətbiq edilməsi və s.

9. Neft-qaz hasilatı və emalı sənayesinin inkişaf yollarının təkmilləşdirilməsi ilə əlaqədar aparılan araşdırmalar göstərdi ki, burada əsas istiqamətlər neft-qaz resurslarının rasional istifadə olunması ilə bağlıdır.

Bu məqsədlə işdə neft emalı və neftkimya məhsulları istahsalı üzrə: xammal→əsas məhsullar təkrar→istehsal əlavə dəyər zəncirinin yaradılmasının zəruriliyi və iqtisadi əhəmiyyəti əsaslandırılmışdır.

Fikrimizcə həmin dəyər zəncirinin fasiləsiz formalaşması üçün “Azərkimya” İB-nin “EP-300” qurğusunun, eləcə də polipropilen və

yüksək sıxlıqlı polietilen qurğuları fasiləsiz olaraq xammalla təchiz edilməli, "Petkim"-də və Sumqayıt kimya sənaye parkında istehsal edilən məhsulların dərin kimyəvi emala cəlb olunması, adı çəkilən parkınn aktivləri arasında inteqrativ proseslər möhkəmləndirilməlidir. Həmin zəncirin qırılmaması üçün aşağıdakı bir sıra əməli xarakterli tədbirlərin icrasına nail olmaq vacibdir:

10. Neftqazçıxarma sənayesinə aid edilən müəssisələrin iqtisadi təhlkəsizliyinin təmin edilməsi mexanizmi qlobal informasiya mühitinə söykənməli və müasir İKT-dən bütün idarə edən və idarə olunan sistemlərdən geniş istifadə edilməlidir. Bu məqsədlə işdə həmin mexanizmin prinsipal sxemi təklif edilmişdir.

11. Ölkəmizdə 1 ton neftin və 1000 kub m. qazin maya dəyərinin ildən ilə yüksəlməsi, neftqazçıxarma idarələrinin bir çoxunun zərərlə işləməsi, YEKin ətraf mühit mənfi ekoloji təsirinin davam etdirilməsi, kimya sektorunda xammal təchizatı, probleminin mövcudluğu, qeyri-təkmil idarəetmə logistik sistemin saxlanılması və s. iqtisadi təhlkəsizliyin möhkəmləndirilməsi üzrə təkmil mexanizmin işlənilməsinin vacibliyini ön plana çəkir. İşdə həmin mexanizmin formalaşdırılması üzrə metodiki yanaşmalar, onun tərtib hissələri və təminediciləri müəyyən edilmişdir.

12. Aparılan təhlil və qiymətləndirmənin məntiqi nəticəsi bütünlükdə neft sənayesində və onun təsiri ilə ölkədə iqtisadi təhlkəsizliyin möhkəmləndirilməsinin başlıca istiqamətlərinin müəyyən edilməsi ilə şərtləşmişdir. Bu məqsədlə işdə idarəetmə səviyyələrindən asılı olaraq ölkənin iqtisadi təhlkəsizliyini təmin edən komleks tədbirlərin təsnifatı verilmişdir. İşdə ölkənin iqtisadi təhlkəsizliyinin formalaşdırılması səviyyəsinin qiymətləndirmək üçün rəqabət qabiliyyətlilik indeksi hesablanmış və həmin təhlükəsizliyin idarə olunan sistemlərdə təmin edilməsi üzrə əməli xarakterli tövsiyələr işlənilmişdir ki, onlarca da tətbiqi yüksək sinerji effekti ilə nəticələnə bilər.

**Tədqiqatın əsas məzmunu müəllifin nəşr etdirdiyi aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Əliyev T.İ. Azərbaycanın neft-qaz resursları iqtisadi təhlükəsizliiyin əhəmiyyətli faktoru kimi // AMEA-ın İqtisadiyyat İnstitutunun Elmi əsərləri N4, Bakı "Elm", 2014, s.104-112.

2. Əliyev T.İ. İqtisadi təhlükəsizliyin təminatında investisiya siyasətinin rolu və vergitutmanın təkmilləşdirilməsi // Azərbaycanın vergi jurnalı N5 (119) Bakı 2014, s. 135-143.

3. Алиев Т.И. Организационно-экономические механизмы управления промышленностью, как основной инструмент экономической безопасности Азербайджанской Республики // Экономика и предпринимательство №8, Москва, 2014, с. 99-109.

4. Əliyev T.İ. Azərbaycanda iqtisadi təhlükəsizliyin təmin edilməsinin müasir istiqamətləri // AMEA-ın İqtisadiyyat İnstitutunun Elmi əsərləri N4, Bakl, “Elm”, 2015 s.94-102.

5. Əliyev T.İ. Müasir iqtisadi təhlükəsizlik problemləri //İpək yolu jurnalı N4, Bakı 2015, s.131-139

6. Алиев Т.И. Основные теоретические подходы и категории экономической безопасности // Научное обозрение, №1, Москва, 2015, с.175-184.

7.Əliyev T.İ. “Neft-qaz gəlirlərinin bəzi makroiqtisadi təsirlərinin qiymətləndirilməsi” // AMEA-ın İqtisadiyyat İnstitutunun Elmi əsərləri N6, Bakı, 2017, s.11-16.

8. Алиев Т.И. «Роль нефтяной промышленности Азербайджана и обеспечение его экономической безопасности» Материалы XXVIII Международной НПК «Актуальные проблемы науки XXI века» часть 1, Москва, 2017, с.52-56.

9. Алиев Т.И. «Возможности эффективного использования нефтегазовых ресурсов Азербайджана в условиях углубляющейся интеграции» Материалы Международной НПК «Внедрение результатов инновационных разработок: проблемы и перспективы» Самара, 2018, с.67-70.

10. Алиев Т.И. «Эффективное использование нефтегазовых ресурсов – основы обеспечения экономической безопасности Азербайджана» International Scientific Journal “Theoretical Applied Science” Philadelphia, USA, 2018, p.p. 201-208.

Dissertasiyanın müdafiəsi 29 dekabr 2021-ci il tarixində saat 16:00-da Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Dövlət Aqrar Universiteti və Azərbaycan Kooperasiya Universitetinin ED 2.42 Birgə dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Atatürk prospekti 450, AZ 2000, Gəncə şəhəri, Azərbaycan

Dissertasiya işi ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Aqrar Universitetinin rəsmi internet saytında (www.adau.edu.az ) yerləşdirilmişdir.

Avtoreferat 29 noyabr 2021-ci ildə zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: “22” _11_ 2021
Kağızın formatı: 60x84
Həcm: 45000 işarə
Tiraj: 100 ədəd